*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 236-243* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.236*

# Nəsiminin dilindəki lətaiflər və onlarla bağlı leksik vahidlərin hind fəlsəfəsi ilə müqayisəli təhlili

**Xədicə Heydərova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan.
E-mail: heyderova73@mail.ru

**Annotasiya.** Təsəvvüfi görüşlərə görə, insan vücudunda onu mənəvi kamilliyə aparan lətaiflər – ruhani mərkəzlər mövcuddur. Bu, hinduizmdəki çakralarla qarışdırılmamalıdır. Çünki çakralar vücudun fiziki və nəfsani enerji mübadilə mərkəzləridir. Hinduizmdəki yeddi çakra təsəvvüfdəki nəfsin yeddi mərtəbəsinə uyğun gəlir. Nəsimi yaradıcılığında lətaiflərin və onunla bağlı anlayışların adlarını ifadə edən leksik vahidlərin hər birinə rast gəlmək mümkündür. Burada lətaifi-xəmsə adlanan *qəlb, ruh, sirr, xəfi* və *əxfa*; aləmi-xalqdan olan beş lətifə *nəfs, torpaq, su, yel* və *od* kimi leksik vahidlər müşahidə olunur. Nəsimi bu lətifələrin adını çəkməklə yanaşı, onlarla bağlı anlayışlardan və sinonimlərdən də istifadə edir: *ümmühat, təbiət, çahar, çar, dörd, ünsür, ənasir, xak, türab.* Mistik şair təsəvvüfdə qəbul edilmiş nəfsin yeddi mərtəbəsindən yalnız *nəfsi-əmmarə*nin və bu sıraya daxil olmayan *nəfsi-şum*un adlarını çəkir.
**Açar sözlər:** Nəsimi, lətifə, lətaif, qəlb, ruh, sirr, xəfi, əxfa, nəfs, dörd təbiət ünsürü

**Məqalə tarixçəsi:** göndərilib – 12.01.2023; qəbul edilib – 31.01.2023

# Comparative analysis of lataifs (anecdotes) in Nasimi's language and lexical units related to them with Indian philosophy

**Khadija Heydarova**
Doctor of Philosophy in Philology
Institute of Linguistics named after Nasimi of ANAS. Azerbaijan.
E-mail: heyderova73@mail.ru

**Abstract.** According to Sufi beliefs, there are spiritual centers in the human body that lead him to spiritual perfection. This should not be confused with the chakras in Hinduism. Because the chakras are the centers of exchange of physical and mental energy of the body. The seven chakras in Hinduism correspond to the seven levels of the soul in Sufism. In the work of Nasimi, one can find each of the lexical units expressing the names of lataifs and related concepts. Here is the heart, soul, secret and akhfa, which are called lataifi-khamsa; lexical units such as soul, earth, water, wind and fire are observed in five anecdotes from the people of the world. In addition to naming these anecdotes, Nasimi also uses the concepts and synonyms associated with them: ummuhat, nature, chahar, king, four, unsur, anasir, khak and turab. The mystic poet mentions only the nafsi-ammara and nafsi-shum, which are not included in this order, from the seven levels of the soul accepted in Sufism.
**Keywords:** Nasimi, latifa, lataif, heart, soul, secret, khafi, akhfa, nafs, four elements of nature

**Article history:** received – 12.01.2023; accepted – 31.01.2023

## Giriş / *Introduction*

Azərbaycanın böyük şairi İmadəddin Nəsiminin (1369-1417) mistik görüşləri klassik təsəvvüf ədəbiyyatına məxsus bir xüsusiyyət olan eşq yolçuluğunda ezoterik düşüncə tərzinə əsaslanır. Öz irfani və hürufi baxışlarının sintezini poeziyasında əks etdirməyə çalışan şair hinduizmə məxsus çakraların təsəvvüfdə qarşılığı olan **lətifə, ləta(y)iflər** və onlarla bağlı anlayışları ifadə edən **qəlb**, **ruh, könül, sirr, xəfi, ixfa, od, su, yel, xak, türab, nəfs, nəfsi-əmmarə, nəfsi-şum, ümmühat, çar, çahar, dörd, ənasir, ünsür, dayə** kimi leksik vahidlərdən istifadə etmişdir. Bu sözləri bir-biri ilə bağlayan nədir? Nəsimi onları obrazlı ifadələrdə işlətməklə nə demək istəmişdir? Məqaləmizdə bütün bunlara addım-addım aydınlıq gətirməyə çalışacağıq.

## Əsas hissə / *Main Part*

### Çakralar və lətaiflər eyni anlayışlardırmı?

Hinduizmdə insan vücudunda mübadilə edən enerjilərin üçbucaq şəklində olan 114 mərkəzi əlaqə qovşağı və ya akupunktur meridianlar olan **çakralar** (sanskrit dilində təkər, çarx deməkdir) ümumiləşdirilmiş şəkildə 7 ədəd təşkil edir və bədən boyu insan gövdəsinin alt nöqtəsindən təpəsinə qədər ardıcıl şəkildə düzülür: 1) muladhara (anus və cinsiyyət orqanları arasındakı boşluqda yerləşir); 2) svadhisthana (cinsiyyət orqanının üstündə yerləşir); 3) manipura (göbəyin altında); 4) anahata (döş qəfəsinin sağında); 5) vişudha (boğaz dibindəki çuxur bölgəsində); 6) acna (qaşlar arasında); 7) sahasrara və ya brahmarandra (əmgəkdə yerləşir). Bax: Şəkil 1.

Təsəvvüfdə çakra sözünün qarşılığı ərəbcə incə, yumşaq və ya zarafat mənasını ifadə edən **"lətifə"**, onun cəm halı isə "**lətaif**"dir (لطائف). Burada insan vücudundakı ruhani mərkəzlərin hər birinə *lətifə* deyilir. Nəsimi aşağıdakı misralarda olduğu yerdə sabit vəziyyətdə duran




***Şəkil 1***

cövhərlər, yəni lətaiflər haqqında fikirlərini dilə gətirməsindən, onları qələmə almasından bəhs edir:

*"Dilimdən irdi, qələmdən töküldü kağıza dürr,*
*Dirildi cümlə **lətayif**, cəvahir odlu səbat."*
[6, s.184]

Əli Salman Dəmirbağ (*türk.* Ali Selman Demirbağ) lətaifləri çakralardan fərqləndirir: "Çakralar açıldıqda lətaiflər oyanmaz, amma lətaiflər açıldıqda çakralar oyanar. Lətaiflər mənavi kamilliyə aparır, çakralar isə vücudun enerji mübadilə mərkəzləridir. Çakralar nəfs, lətaiflər isə ruhani mərtəbələrdir. Çakralar nəfəs gimnastikası və meditasiyanın köməyi ilə fiziki bədəndə ilahi enerjiyə çatmadan açıla bilər, amma lətaiflərin bu üsullarla açılması qeyri-mümkündür" [3, s.91-92]. Lətaiflərin oyanması üçün qüsllü və dəstəmazlı olmaq, mütəmadi şəkildə sidqi-ürəkdən namaz, zikrlər və dualar etmək lazımdır.

Beləliklə, hinduizmdəki yeddi çakra təsəvvüfdəki nəfsin yeddi mərtəbəsinə uyğun gəlir. Bu məsələyə az sonra "Aləmi-xalqdan olan 5 lətifə" yarımbaşlığında aydınlıq gətiriləcəkdir.

Nəsimi təsəvvüf ədəbiyyatının tipik batini nümayəndəsi olduğu üçün onun əqidə və düşüncələri şeirlərindəki sətiraltı mənalarda öz əksini tapır. Aşağıda şair deyir: mən həm mikrokosm, həm də makrokosmam; mən həm an, həm də zamanam. Sən bu ruhani mərkəzə, yəni ruha bax ki, an və zamana sığmır:

*"Can ilə həm cahan mənəm, dəhrilə həm*
*zaman mənəm*
*Gör bu **lətif**əyi ki, mən dəhrü zamanə*
*Sığmazam."* [6, s.7]

Təsəvvüfi düşüncəyə görə, insan ümumilikdə, 10 lətaifdən (lətaifi-aşara) ibarətdir: **qəlb, ruh, sirr, xəfi, əxfa, nəfs** və **dörd ünsür** (**od, yel, su, torpaq**). Köksdə yerləşən 5-i (lətaifi-xəmsə) – qəlb, ruh, sirr, xəfi və əxfa mənəvidir və ilahi xüsusiyyətlərə malikdir. Bax: Şəkil 2. Digər 5-i isə aləmi-xalqdandır və cismanidir – nəfs, atəş, hava, su və torpaq. "Ruhun batini sirr, sirrin batini sirri-sirr, sirri-sirrin batini xəfi, xəfinin batini əxfa lətifəsidir" [4, s.85]. İrfani biliyə görə, lətaiflər soğan kimi iç-içə bir-birini sarmışlar. Təriqətlərdə bu mənəvi enerji mərkəzləri zikrlə oyandırılır.

Nəsimi yaradıcılığında lətaiflərin və onunla bağlı anlayışların adlarını ifadə edən leksik vahidlərin hər birinə rast gəlmək mümkündür.

## Allahın dərgahından olan 5 lətifə (lətaifi-xəmsə)

Yuxarıda qeyd edildiyi kimi, lətaifi-xəmsə adlanan *qəlb, ruh, sirr, xəfi* və *əxfa* köksdə dağılmış, amma soğan kimi iç-içə sarılmış şəkildə yerləşir.

**QƏLB** hissiyyatın mərkəzi olub, sol döşün iki barmaq altında, fiziki ürəyin içində mövqe tutmuşdur. "Sufi psixologiyasında, müqəddəs sayılan qəlb bizim dərin zəka və irfanımızı ehtiva edir və mərifətin qaynağıdır" [4, s.84] və ilahi hüzur və təcəlli yeridir. Məhəmməd Peyğəmbər bir hədisində möminin qəlbini Allahın evi (beytüllah) və Ərşi adlandırır. Həmin hədisi Nəsimi şeirə çevirmişdir:

*"Mö'minin **qəlb**i içində çünki beytüllahdır,*
*Neçin izzət eyləməzsən, anda çün Allahdır".*

[6, s.143]

Şərhi: Möminin qəlbi Allahın evidir, bəs nədən lazım olan dəyəri vermirsən? Axı orda Allah var?!

**RUH** sağ döşün iki barmaq altında yerləşir. Allahın insanda olan, cismani olmayan, yalnız duyula bilən, mənəviyyatla bağlı bir parçasıdır. İlahi eşq və məhəbbətin olduğu yerdir. İsra surəsi, ayə 85-də yazılıb: "Səndən ruh haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindədir. Sizə (bu barədə) yalnız cüz´i (az) bilik veril-




***Şəkil 2***

mişdir!" "Sufi və irfan düşüncəsinə görə, iki cür ruh mövcuddur: *heyvani ruh* və *insani ruh*. İkinci *insani ruh*dur ki, buna *qüdsi ruh, pak ruh, rəbbani ruh, ilahi ruh, ruhi-rəvan* (azad ruh, gedib-gələn ruh, seyredici ruh) da deyilir. *Heyvani ruh*dan fərqli olaraq, *insani ruh* yalnız insana məxsusdur. Başqa heç bir canlıda bu *ruh* mövcud deyil. Allahın öz zatından insana üfürdüyü həmin *ruh* ilahi substansiyanın insanın cismani varlığındakı təcəllisidir. Tanrı zatının insan bədənindəki nur və qüdrət parçasıdır ki, vəhdətdən ayrılıb kəsrətə düşmüşdür. Buna təsəvvüfdə rəmzi mənada "mən" də deyilir" [2, s.36].

*"Çün tö'meyi-insan olur, insanü cismü can olur*
*Pəs **ruh**i-insani olub, çün surəti-Rəhman*
*gəlir."* [6, s.200]

Şərhi: Çünki insan – yemək yeyən və cismində heyvani ruhu, yəni canı olan varlıqdır. Amma onda həm də insani ruh var, bu səbəbdən Allahın surətindədir.

*“Mən ki dərvişəm, fəqirəm, padişahi-aləməm*
***Ruhi**-birəngəm, əgərçi rəngə girdim, adəməm.”* [6, s.85]

Şərhi: Mən yoxsul bir dərvişəm, amma dünyanın əşrəfiyəm. Əvvəl şəffaf ruh idim, cismə girdim – insana çevrildim.

**KÖNÜL.** Şair türk mənşəli *könül* leksik vahidindən istifadə edərkən məhz ruhu nəzərdə tutur və ona sinonim kimi işlədir, çünki aşağıdakı beytində könülün insanın köksündə sağda yerləşdiyini vurğulayır:

*“**Könül** bir nöqtədir, eşqi-yəmində,*
*Bitirdi bəhri-Eşqin kainatı.”* [5, s.111]

Şərhi: Könül insanın sağında bir mikrokosmdur. Onu makrokosm olan Allah yetişdirmişdir.

Nəsimi Bəzmi-əzəl günündə Allahın ruhlarla söhbətinə işarə vurarkən yenə *ruh* yerinə *könül* sözünü işlədir:

*“Qalü bəladə Yar ilə qövlü çü qıldın, ey **könül**,*
*Qövlündə sadiqdir ki, mən inanmışam iqrarinə.”* [6, s.39]

Şərhi: Ey ruhum, qalü bəla günündə sən Tanrı ilə əhd kəsdin. Əhdinə sadiqsən, mən sənin etirafına inanmışam. Nəsiminin *bəzmi-əzəl* və ya *qalü bəla* adlandırdığı gün Quranın “Əraf” surəsinin 172-ci ayəsinə əsaslanır: Allah insanı yaratmazdan əvvəl ruhları xəlq etmiş və onlara “mən sizin Rəbbiniz deyiləmmi?” deyə soruşmuş. Ruhlar demişlər (قالوا) – “Bəli, Rəbbimizsən”.

**SİRR** insan vücudunda sol köksün iki barmaq üstündə yerləşir. İlahi mərifət yeridir.

*“Sinəm gəncineyi-**sirr**i-Xudadır,*
*Nola gər surətən xürdü həqirəm.”* [6, s.121]

Şərhi: Görünüşcə çox görkəmsiz olsam da, sinəm Allahın sirr xəzinəsidir.

**XƏFİ** ərəb sözü olub, *gizli, məxfi* mənasını ifadə edir. Sufi inancına görə, insan vücudunda sağ köksün iki barmaq üstündə yerləşir.

**İXFA** ərəbcə *gizləmə, saxlama; gizli, məxfi* deməkdir. Köksün tam mərkəzində, digər dörd lətaifin tən ortasında yer alır. Bəzi mənbələrdə bu söz “əxfa” şəklində də yazılır. Aşağıdakı beytdə xəfi və ixfa sözlərinin ikisi də işlənir və Nəsimi demək istəyir ki, gizli xəzinə xəfi adlanır. Allahın xəzinəsinə dalmaq, Onun ilahi təcəllilərinə şahidolma ixfa deyilmi?

*“Müsəmmadır **xəfi**, ey kənzi-məxfi,*
*Şühudu kənzi-Həq **ixfa** degilmi?”* [6, s.37]

Şərhi: Xəfi adlanan, ey gizli xəzinə, Allahın xəzinəsinin ilahi təcəllilərinə şahidolma, məna aləmini seyretmə ixfa deyilmi?

### Yaradılış aləmindən (aləmi-xalqdan) olan 5 lətifə

#### Nəfs

Aləmi-xalqdan olan beş lətifəyə *nəfs, torpaq, su, yel* və *od* aiddir. Nəsimi bu lətifələrin adını çəkməklə yanaşı, onlarla bağlı anlayışlardan və sinonimlərdən istifadə edir: *ümmühat, təbiət, çahar, çar, dörd, ünsür, ənasir, xak, türab.*

**NƏFS** – heyvani ruhdur. “O, bütün canlılarda, o cümlədən insanda da vardır. Bu, canlı varlığı yaşadan, ona həyati qabiliyyət verən mənəvi cövhərdir ki, ona *can* deyirik. Can hər bir canlı məxluq yaranarkən ona əta olunur, həmin varlıq ölərkən cismi tərk edir. İnsana can uşaq ana bətnində dörd aylıq olarkən 120-ci günün tamamında verilir və insan ölərkən bədəndən ayrılır” [2, s.36]. Təsəvvüfdə nəfs qulun pis xasiyyətləri və hisslərinin yer aldığı lətifədir. İbn Ərəbi qeyd edir ki, nəfs ruhumuzun ən çətin düşməni olaraq qarşımıza çıxır. Ancaq tərbiyə edildikdə ruhumuzun yardımçısına çevrilir. Nəsimi aşağıdakı beytdə nəfsi yaramaz adlandırır və ona uyanın cahil olduğunu göstərir. Şair insana əməllərində diqqətli olmağı tövsiyə edir.

*“Nəfsi-xəbisə uymaq nadanların işidir*
*İşin nədir gör axır, fikr eylə, olma nadan?”* [6, s.71]

Nəsimi nəfsdən bəhs edərkən İmam Əlinin “Nəfsini bilən Haqqı bildi” (من عرف نفسه فقد عرف ربه) hədisinə əsaslanır.

*“Mən-ərəfna hökmilə öz nəfsini gər bilməsən*
*Həq bilir səndən ayırmaz kimsə heyvan*
*surətin.”* [5, s. 174]

Şərhi: Öz nəfsini öyrənib idarə etməyi bacarmayanın heyvandan fərqi yoxdur.

Nəsimi *nəfs* sözü ilə bağlı müxtəlif frazeoloji ifadələrdən istifadə edir: *“nəfsini basmaq”* (nəfsinə üstün gəlmək), *“nəfsini öldürmək”* **(**nəfsi istəklərə qalib gəlmək). Məsələn:

*“Ölmədən nəfsini öldür, arifi-Rəbb olasan*
*Nəfxeyi-ruhülqüdüsdən məhz rühüllahı gör!”*
[6, s.140]

Şərhi: Nə qədər sağsan, nəfsinə qalib gəl ki, Allahın sirlərini bilən arif olasan. İsanın üfürməsi ilə yenidən dirilib özündə Allahın ruhunu aşkar edəsən.

Yuxarıda qeyd edildiyi kimi, hinduizmdəki 7 çakranın qarşılığına məhz təsəvvüfdəki nəfsin 7 mərtəbəsi uyğun gəlir: nəfsi-əmmarə (kök çakra), nəfsi-ləvvamə (göbəkaltı çakra), nəfsi-mülhimə (göbək çakrası), nəfsi-mütməinnə (qəlb çakrası), nəfsi-raziyə (boğaz çakrası), nəfsi-mərziyyə (alın çakrası) və nəfsi-safiyə və ya nəfsi-kamilə (əmgək çakrası). Şəkil 3.
İsa Çelik göstərir ki, təsəvvüfdə sufilər nəfsin dörd mərtəbəsini dörd ünsürə bənzədərək nəfsi-əmmarəni atəş, nefsi-ləvvaməni hava, nəfsi-mülhiməni su, nəfsi-mütməinnəni torpaq dərəcəsində hesab edirlər” [4, s.65].




***Şəkil 3***

Nəsimi bunlardan yalnız *nəfsi-əmmarə*nin və yuxarıda göstərilənlərin sırasına daxil olmayan *nəfsi-şum*un adını çəkir. İbni Ərəbi və Sədrəddin Konəvi kimi mütəsəvviflər 7 əsas nəfsdən əlavə, nəfsi-şum və nəfsi-natiq kimi növləri də ayırd etmişlər.

**Nəfsi-əmmarə** ərəbcə *əmr edən nəfs* mənasını ifadə edir. Bu birləşmə Şeytana şamil edilir və insan nəfsinin ən aşağı dərəcəsidir. Allahın əmrlərinə uymayan, haram, qadağa edilənləri çəkinmədən gerçəkləşdirən, zövq və həzzə uyan nəfsdir. Nəfsi-əmmarəyə sahib olanlar gördüyü pis işlərdən peşmanlıq duymaz, vicdan əzabı çəkməzlər. Hürufilərə görə, “cəhənnəmə düşənlər nəfsi-əmmarə sahibləridir; onların nəfsləri ağla və ilahi əmrlərə itaət etməz. Onlar üçün cəhənnəmdən qurtuluş yoxdur; nəfsləri heç bir şəkildə ağıla itaət etməz və mənəvi xəstəliklərdən qurtulmuş imanlı nəfsə çevrilməz [9, s.134].

*“Divi-rəcimin atıdır əmmarə nəfsin mərkəbi*
*Tərk eylə divin atını, yapışma anın yalına!”*
[6, s.65]

Şərh: Nəfsi-əmmarənin miniyi lənətəgəlmiş Şeytanın atıdır (nəfsdir). Şeytanın atını (nəfsini) tərk et, onun yalından yapışma!

Mətanət Abdullayeva “Klassik poeziya: ezoterik xəzinə” monoqrafiyasında hinduizm fəlsəfəsindəki kundalini enerjisindən bəhs edərək, onun Nəsimi yaradıcılığında simvolik olaraq **bülbül** ilə ifadə edildiyini göstərir: “Kundalini enerjisinin birinci lətif çarxdan (çakradan; Əslində, yuxarıda izah etdiyimiz kimi, “çakralar” “lətifə” anlayışı ilə deyil, nəfsin mərtəbələri ilə uyğunluq təşkil edir – X.Heydərova) çıxması ezoterik poeziyada obrazlı şəkildə bülbülün qəfəsdən ayrılıb gülüstan seyrinə çıxması kimi də göstərilir [1, s.124]:

*“Çıx qəfəsdən, gəlgil, ey **bülbül**, gülüstan*
*seyrin et,*
*Bas qədəm meydani-eşqə görəsən mə’vayi-*
*eşq.”* [6, s.30]

### Təbiətin dörd ünsürü

Digər dörd ünsür olan *su, torpaq, yel* və *od* insan vücudunda dağılmış şəkildədir. Nəsimi onların “yeddi xətlə (2 qaş, 4 kiprik, 1 saç)

çarpılması ilə Quran sirrinin çözüləcəyinə inanmışdır" (Ayan, 1990:36). Şair təbiətin dörd ünsürünü ifadə etmək üçün əlavə olaraq müxtəlif anlayışlardan və sinonimlərdən istifadə edir: *ümmühat, təbiət, çahar, çar, dörd, ünsür, ənasir, xak, türab*.

**Ümmühat** ərəb sözü olub *analar* deməkdir. Orta əsrlərdə Şərqin ədəbi və fəlsəfi əsərlərində təbiətin dörd ünsürü "ümmühat" leksik vahidi vasitəsilə ifadə olunmuşdur.

*"**Ümmühat** ilən nə var abaya olmasa xələl*
*Aləmi təhqiqə baxsan cümləsindən əqdəməm."*
[6, s.85]

Şərh: Klassik ədəbiyyatda və fəlsəfədə 9 planetə *aba* (*ər.* atalar) deyilmişdir. Nəsimi ruhunun təbiətin 4 ünsüründən və 9 planetdən də qədim olduğunu bildirir.

**TƏBİƏT.** Ərəb mənşəli bu söz *üzvi və qeyri-üzvi aləm; insan fəaliyyəti ilə yaradılmamış hər şey* deməkdir. Nəsimi aşağıdakı beytdə əzizləmə mənasında işlətdiyi sözlərə təbiətin dörd ünsürünü də qatır:

*"Rəmimü gorumü cismim, dü eynim, fikrimü əqlim*
*Amanım, adətim, fitnəm, **təbiət** ünsürü qanım."* [5, s. 143]

**Çahar** və **çar** sözləri fars mənşəli olub *dörd* deməkdir. Şair bəzən bu sayı ayrıca tək halda təbiətin dörd ünsürünü ifadə etmək üçün istifadə edir:

*"Ərşi-münəqqəş mənəm, çar ilə nöh, şeş mənəm*
*Həm həsənat işlərəm, həm qılıram səyyiat."*
[6, s.181]

Şərhi: Lövhi-məhfuz mənəm, təbiətin dörd ünsürü, doqquz fələk və altı cəhət mənəm. Həm yaxşı işlər görürəm, həm pislik edənəm.

Türkmənşəli **dörd** sayını da istifadə edən Nəsimi bu dəfə simvolik anlamda *dörd ünsür* əvəzinə, *dörd dayə* sözündən istifadə edir:

*Doquz atə, yedi anə, **dörd** dayədən ver xəbər.*
[7, s.50]

Şərhi: Doqquz fələk, qədim coğrafiya təsnifatına görə yeddi bölgə və ya yeddi irq insanların yaşadığı ərazilər və təbiətin dörd ünsüründən bəhs et.

**ÜNSÜR** ərəb mənşəli olub element, komponent deməkdir.

*"Əqli-küll Ərşü Kürsü, lövhü qələm*
*Çar **ünsür**, nöh asimandır söz."* [6, s.9]

Şərhi: "İbn Ərəbiyə görə, həqiqəti-Məhəmmədiyyə əqli-külldür, çünki bütün varlığın toxumu, arxetipidir (Peyğəmbərin «Adəm su ilə palçıq arasında olanda mən artıq peyğəmbər idim» hədisini əsas gətirərək)" (Usluer, 2009:114). Yuxarıdakı beytdə Nəsimi demək istəyir ki, həqiqəti-Məhəmmədiyyə, Allahın dərgahı olan Ərş və Kürsi, Kainatın və dünyanın bütün olmuş və olacaqlarının yazıldığı Lövhi-məhfuz, dörd təbiət ünsürü və doqquz fələk Tanrının bir kəlməsindən – kun! (كن) sözündən yaranmışdır.

**ƏNASİR** ərəb dilində ünsür sözünün cəmi olub Nəsiminin dilində təbiətin dörd ünsürünə şamil edilir.

*"Həm **ənasir**, həm təbaye, həm mürəkkəb, həm bəsit,*
*Cümlənin əslivü fər'i, Qadirin məqduruyam."*
[6, s.110]

Şərhi: Həm 4 ünsür, həm bu ünsürlərdə olan xassələr, həm sadə, həm də mürəkkəb şeylər mənəm. Mən bütün mövcudatın əsası və törəməsi, Allahın təqdiriyəm, yəni insanam.

**OD** türk mənşəli söz olub təbiətin dörd ünsüründən biridir. Nəsimi aşağıdakı beytdə suallar verir: Adəm nədən od, su, torpaq və yel tərkibinə malikdir? Allah niyə başqa mələklərə ona səcdə etməyə əmr etmişdir? İblisin lənət olunması nədir?

*"**Od**ü su, torpağü yel adı nədəndir Adəm*
*Ana səcdə nə üçün, İblisə inkar nədir?"*
[6, s.15]

**YEL** sözü də türk mənşəli olub *külək* deməkdir və dörd təbiət ünsüründən biridir. Nəsimi ilahi nurdan hər şeyin nurlandığını, üzərində işıqlar oynadığını göstərir.

*"Nəsimi, uşbu ənvarın şüasından münəvvərdir*
*Kitabü nərdü şətrəncü odü yel, su, türab oynar."* [5, s. 197]

**SU** – Adəmin cismini təşkil edən dörd təbiət ünsüründən biridir. Nəsimi aşağıdakı beytdə torpaq, yel, od və sudan insanı yaradan və ona surət verən Allahı Nəqqaş adlandırır.

*"Zəhi, türab ilə əqd eyləyən yel ilə odu*
*Zəhi, **su** üstünə yazan bu surəti Nəqqaş."*
[6, s.101]

**XAK** fars mənşəli olub *torpaq* deməkdir. Dörd təbiət ünsüründən biridir. Təsəvvüf ədəbiyyatında dövr nəzəriyyəsinə görə, ilahi nurun sıra ilə torpaqdan mədənə, ondan bitkiyə, bitkidən heyvana, heyvandan insana intiqal etməsi (https://islamansiklopedisi.org.tr/devriyye). Nəsiminin reinkarnasiya (ruhun bir bədəndən digər bədənə keçməsi) ilə bağlı görüşləri aşağıdakı beytində öz təsdiqini tapır:

*"Çün xakdan edər səfər mə'dən, nəbat olur şəcər*
*Rövşən görər əhli nəzər k'ol tö'meyi-heyvan gəlir."* [6, s.200]

**TÜRAB** ərəb mənşəli olub Nəsimi yaradıcılığında xak sözünə sinonim olaraq dörd təbiət ünsüründən biri kimi işlənir.

*"Zəhi, **türab** ilə əqd eyləyən yel ilə odu*
*Zəhi, su üstünə yazan bu surəti Nəqqaş"*
[6, s.101].

## Nəticə / *Conclusion*

Təsəvvüfi görüşlərə görə, insan vücudunda onu mənəvi kamilliyə aparan lətaiflər – ruhani mərkəzlər mövcuddur. Bu, hinduizmdəki çakralarla qarışdırılmamalıdır. Çünki çakralar vücudun fiziki və nəfsani enerji mübadilə mərkəzləridir. Hinduizmdəki yeddi çakra təsəvvüfdəki nəfsin yeddi mərtəbəsinə uyğun gəlir. Nəsimi yaradıcılığında lətaiflərin və onunla bağlı anlayışların adlarını ifadə edən leksik vahidlərin hər birinə rast gəlmək mümkündür. Burada lətaifi-xəmsə adlanan *qəlb, ruh, sirr, xəfi* və *əxfa*; aləmi-xalqdan olan beş lətifə *nəfs, torpaq, su, yel* və *od* kimi leksik vahidlər müşahidə olunur. Nəsimi bu lətifələrin adını çəkməklə yanaşı, onlarla bağlı anlayışlardan və sinonimlərdən də istifadə edir: *ümmühat, təbiət, çahar, çar, dörd, ünsür, ənasir, xak, türab*. Mistik şair təsəvvüfdə qəbul edilmiş nəfsin yeddi mərtəbəsindən yalnız *nəfsi-əmmarə*nin və bu sıraya daxil olmayan *nəfsi-şum*un adını çəkir.

## Ədəbiyyat / *References*


1. Abdullayeva, M. Klassik poeziya: ezoterik xəzinə. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2009.
2. Babayev, Y. Təriqət ədəbiyyatı: Sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. – Bakı: Nurlan, 2007.
3. Demirbağ, Ali Selman. Beyin Kontrolü, Beynimdeki Yabancı. Hayat Yayınları. – Ankara, 2018.
4. Çelik, İsa (2009). Tasavvuf Terminolojisinde Letâif-i Ruhaniye. Marife, yıl. 9, sayı. 2, güz.
5. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə, I cild. Tərtib edəni: Həmid Araslı. – Bakı: Lider nəşriyyat, 2004.
6. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə, II cild. Tərtib edəni: Həmid Araslı. – Bakı: Lider nəşriyyat, 2004.
7. Qəhrəmanov, C. Nəsimi divanının leksikası. – Bakı: Elm, 1970.
8. Qurani-Kərim və Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Yenidən işlənmiş XVI nəşr. – Bakı: Nurlar, 2014.
9. Usluer Fatih. Hurufilik (ilk Elden Kaynaklarla Doğuşundan itibaren). – İstanbul: Kabalcı Yayınevi, 2009.
10. https://islamansiklopedisi.org.tr/devriyye

# Лексические единицы, отражающие эзотерическое мировоззрение Насими в сопоставлении с индийский философией

**Хадиджа Гейдарова**
Доктор философии по филологии
Институт языкознания имени Насими НАНА. Азербайджан.
E-mail: heyderova73@mail.ru

**Резюме.** Согласно суфийским верованиям, в теле человека есть духовные центры, ведущие его к духовному совершенству. Это не следует путать с чакрами в индуизме. Потому что чакры – это центры обмена физической и психической энергией тела. Семь чакр в индуизме соответствуют семи уровням души в суфизме. В творчестве Насими можно найти каждую из лексических единиц, выражающих имена латаифов и родственные им понятия. Здесь сердце, душа, тайна, хафи и ахфа, которые называются латаифи-хамса; лексические единицы, такие как душа, земля, вода, ветер и огонь, наблюдаются в пяти баснях от людей мира. Помимо наименования этих анекдотов, Насими также использует понятия и синонимы, связанные с ними: уммухат, природа, чахар, царь, четыре, унсур, анасир, хак, тураб. Поэт-мистик упоминает только не входящие в этот порядок нафси-аммара и нафси-шум из семи уровней души, принятых в суфизме.

**Ключевые слова:** Насими, латифа, латаифы, сердце, душа, тайна, хафи, ахфа, нафс, четыре стихии природы